Sentyabr 2016

# PwC Azerbaijan Times

## 28 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **ABAD publik hüquqi şəxsin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **Pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
- **İpəkçiliyin inkişafına dövlət dəstəyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
- **Azərbaycanda istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *ABAD publik hüquqi şəxsin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılmışdır.

"ABAD" mərkəzləri vasitəsilə aşağıdakılar həyata keçiriləcək:

1. ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, bu layihələrin maliyyələşdirilməsi məqsədi ilə fondun yaradılması;

2. "ABAD" layihələri üçün ailə təsərrüfatlarının, kiçik və orta sahibkarların müəyyənləşdirilməsi, təsərrüfat məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadə edilməsinə şərait yaradılması;

3. ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara biznes planların hazırlanması, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi;

4. istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkili;

5. istehsal olunan məhsulun daşınmasının və satışının təşkili;

6. istehsal avadanlıqlarından istifadə ilə bağlı təlimlərin keçirilməsi, həmin avadanlıqlara texniki dəstəyin təmin edilməsi, beynəlxalq təcrübə, kənd təsərrüfatı sahəsində istifadə olunan ən qabaqcıl texnoloji yeniliklərlə bağlı məlumatlandırma;

7. layihə çərçivəsində nəzarət və qiymətləndirmə aparılması;

8. istehsalyönümlü sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı digər tədbirlərin təşkili.

# PwC Azerbaijan Times

## 28 saylı Buraxılış

### *Pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Pambıq istehsalının stimullaşdırılması üçün emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına AZN 0,1 subsidiya nəzərdə tutulur. Bu qayda 2016-cı il ərzində istehsal edilmiş pambığa da aid edilir.

### *İpəkçiliyin inkişafına dövlət dəstəyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Barama istehsalının stimullaşdırılması məqsədi ilə bu sahə ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə subsidiya müəyyən edilmişdir. Veriləcək subsidiyanın məbləği və verilmə qaydası 2 (iki) ay ərzində Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilməlidir.

### *Azərbaycanda istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasında istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən, ən azı üç dildə (Azərbaycan, ingilis və rus dillərində) fəaliyyət göstərən İnternet portalının üç ay müddətində yaradılmasına qərar verilmişdir.